# Bakı forumu humanitar əlaqələrin inkişafına böyük töhfə verəcək





Dünən Milli Məclisin Sədri Oqtay Əsədov VI Bakı Beynəlxalq Humanitar Forumunda iştirak etmək üçün ölkəmizdə səfərdə olan Parlamentlərarası İttifaqın prezidenti xanım Qabriela Kuevas Baronun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdü.

Bu səfərin Azərbaycan və Parlamentlərarası İttifaq arasında mövcud əlaqələrin inkişafına töhfə verəcəyini söyləyən Sədr Oqtay Əsədov bu ilin dekabrın 14-15-də Azərbaycanda Gənc Parlamentarilərin V Qlobal Konfransının keçirilməsinin planlaşdırıldığını diqqətə çatdırdı.

Qonaq Qabriela Baron foruma dəvət olunduğuna görə təşəkkür edərək Azərbaycana növbəti dəfə səfər etməsindən məmnunluğunu bildirdi. O qeyd etdi ki, artıq 4-cü dəfədir Azərbaycanda səfərdir. Parlamentlərarası İttifaqın prezidenti kimi isə ölkəmizə ilk səfəridir.

Digər səfərləri çərçivəsində Azərbaycanda bir çox görüşlər keçirdiyini deyən Qabriela Baron Bakıda keçirilən forumun ölkələr və xalqlar arasında əlaqələrin, eləcə də parlamentlərarası əməkdaşlığın inkişafına töhfə verdiyini vurğuladı.

Söhbət zamanı Qabriela Baron bu ilin dekabrında Azərbaycanın Gənc Parlamentarilərin V Qlobal Konfransı kimi mühüm tədbirə evsahibliyi etməsinə görə minnətdarlığını bildirdi və bunu çox yaxşı təşəbbüs kimi dəyərləndirdi.

Bakının bir çox beynəlxalq forumların keçirildiyi məkana çevrildiyini söyləyən Oqtay Əsədov bu cür tədbirlərin əhəmiyyətini xüsusi qeyd etdi.

* * *

Dünən həmçinin Sloveniya Parlamenti Milli Şurasının sədri Aloyz Kovşanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşən spiker Oqtay Əsədov ölkələrimiz arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğunu dedi. Qeyd etdi ki, dövlət başçıları arasındakı qarşılıqlı səfərlər də bu əlaqələrə xüsusi töhfə verir.

Görüşdə diqqətə çatdırıldı ki, dövlətlər arasında imzalanmış 12 sənəddən 10-u mövcud hüquqi bazanı möhkəmləndirir, əməkdaşlığı gücləndirir.

Oqtay Əsədov bununla belə Azərbaycan və Sloveniya arasında iqtisadi əlaqələrin arzuolunan səviyyədə olmadığını deyərək əlavə etdi ki, yaradılmış işçi qrupu bunun inkişafı üçün əlindən gələni edəcək. Söhbət zamanı Azərbaycanın təşəbbüskarı olduğu bir sıra mühüm regional layihələrin əhəmiyyətindən də söz açıldı.

Oqtay Əsədov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən və Xocalı faciəsindən də danışdı. Sədr Sloveniya Parlamentinin 2014-cü ildə Dağlıq Qarabağ münaqişəsinə dair, 2016-cı ildə Xocalı qətliamını tanıyan qətnamələr qəbul etməsini yüksək dəyərləndirdi.

Sloveniya Parlamenti Milli Şurasının sədri Aloyz Kovşa isə qonaqpərvərliyə görə Azərbaycan xalqına təşəkkürünü çatdırdı. Qonaq Bakıda bir sıra mühüm görüşlər keçirdiyini və bu görüşlərdə əməkdaşlığın inkişafına dair müzakirələr apardığını diqqətə çatdırdı.

***F.ƏHMƏDOVA,***
***Fotolar F.BAĞIROV və***
***A.MƏMMƏDOVundur***
***"Azərbaycan"***

Azərbaycan.- 2018.-27 oktyabr.- S.2.